Mülki müdafiə təşkilatı ilk dəfə Fransanın Paris şəhərində 1931-ci ildə tibb generalı Corc Sant Pol tərəfindən yaradılmışdır. 3 noyabr 1993-cü il tarixindən Azəraycan Respublikası bu təşkilatın üzvüdür. Beynəlxalq Mülki Müdafiə təşkilatı 1972-ci ildən fəaliyyət göstərir və onun qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşir.

Beynəlxalq Mülki Müdafiə təşkilatı Baş Qərargahının qərarı ilə hər il mart ayının 1-i Ümumdünya Mülki Müdafiə günü kimi qeyd olunur. Beynəlxalq Mülki Müdafiə Günü hər il konkret bir probleme həsr edilir. "Mülki müdafiə - əhalinin təhlükəsizliyinin təminatıdır" - bu ilin (2025-ci il) mövzusudur. Bu günün keçirilməsində əsas məqsəd dünya ictimaiyyətinin diqqətini Mülki Müdafiə xidmətlərinə, insanların və onların əmlakının xilas edilməsinə, təhlükəsizliyinin təmin edilməsinə və ətraf mühitin qorunmasina yönəltməkdir.

*1 Mart - Ümumdünya Mülki Müdafiə Günüdür*

# Fövqəladə hal, ziyan və itkilərin azaldılması

Mülki müdafiə - dinc dövrdə və ya müharibə dövründə əhalinin və ərazinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlət hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilən tədbirlər sistemidir.

Fövqəladə halların qarşısının alınması məqsədi ilə profilaktik tədbirlərin həyata keçirilməsi, fövqəladə hal zamanı mümkün olan ziyan və itkilərin həcminin maksimum azaldılması, fövqəladə halların və nəticələrinin aradan qaldırılması Azərbaycan Respublikasının mülki müdafiəsinin əsas məqsədləridir. Əhaliyə sülh və müharibə dövrlərindəki fövqəladə hallarda mühafizə və fəaliyyət qaydalarının öyrədilməsi Mülki müdafiənin əsas vəzifələrindən biridir. Bu vəzifə Azərbaycan Respublikasının Prezidentinin 700 saylı Fərmanı və Nazirlər Kabinetinin 193 saylı Qərarının tələblərinə uyğun olaraq yerinə yetirilməlidir. Mühafizə işləri ölkənin 8 yaşdan yuxarı bütün əhalisinə öyrədilməlidir. Bu zaman 8-16 yaşlı şəxslərə fövqəladə hallarda mühafizə olunmağın üsul və qaydaları, 16 yaşdan yuxarı şəxslərə isə bundan əlavə qəzaların və fəlakətli hadisələrin nəticələrini aradan qaldırmaq üzrə fəaliyyət qaydaları da öyrədilir. Fövqəladə hallardan mühafizə qaydalarının və əhaliyə mülki müdafiənin öyrədilməsi respublikanın bütün ərazisindəki nazirlik, komitə, idarə, müəssisələrin, təşkilatların rəhbərləri tərəfindən təşkil edilir, kadrların hazırlanması sistemində işçilərin əsas vəzifəsilə yanaşı mülki müdafiə üzrə vəzifələr də nəzərə alınmaqla, fərdi və fasiləsiz yerinə yetirilir. Mülki müdafiənin tədrisi üçün ölkə əhalisi şərti olaraq 5 qrupa ayrılır: Rəhbər heyət; Hərbiləşməmiş mülki müdafiə dəstələrinin komandir-rəis və sıravi heyətləri; Mülki müdafiə dəstələrinə cəlb olunmayan fəhlə, qulluqçu və kənd təsərrüfatı işçiləri; istehsalat və xidmət sahəsində məşğul olmayan əhali, məktəbli gənclər.




İstehsalat qəzalarının səbəblərini araşdırarkən məlum olur ki, belə hallar çox vaxt işçinin istehsalat texnologiyasını pozması, istismar və təhlükəsizlik qaydalarına dəqiq riayət etməməsi, öz vəzifəsinə məsuliyyətsiz yanaşması və ya onun öhdəsindən gələ bilməməsi nəticəsində baş verir. Buna görə də bütün obyektlərdə və xüsusən də təhlükə potensiallı müəssisələrdə qəzaların səbəblərini aşkara çıxarmaq və aradan qaldırmaq, onların ehtimal edilən nəticələrini zəifləmək, işçilərin, avadanlığın mühafizəsini təmin etmək məqsədilə müvafiq tədbirlər kompleksi həyata keçirilməlidir. Tədbirlərin konkret məzmununu - əməyin təhlükəsizliyi, mülki müdafiə üzrə tələblər, yanğın və radiasiya təhlükəsizliyi qaydaları və digər müvafiq normativ sənədlərin göstərişləri ilə müəyyən etmək lazımdır. Sülh və müharibə dövrlərindəki fövqəladə hallarda əhalini mühafizə etmək Azərbaycan Respublikası mülki müdafiəsinin başlıca vəzifələrindən biridir. Bu vəzifələrin yerinə yetirilməsində respublikanın bütün dövlət, təsərrüfat, hərbi orqanları və ictimai təşkilatları, eləcə də hər bir vətəndaşı fəal iştirak etməlidir. Buna, respublikanın bütün əhalisinə əvvəlcədən mühafizə tədbirlərinin öyrədilməsi yolu ilə nail olmaq mümkündür. Əhali müharibə dövründə müasir basqın silahlarından və təhlükə potensiallı obyektlər dağılarkən yaranan ikinci dərəcəli zədələyici amillərdən mühafizə edilməlidir. Sülh dövründə isə ehtimal edilən qəzalardan, təbii fəlakətlərdən və adamların həyatı üçün təhlükə törədən digər fövqəladə hallardan mühafizə edilməlidir.

Əhalinin mühafizəsi - fövqəladə hallarda adamların həyatının qorunması üçün lazımi şərait yaradılmasını nəzərdə tutur. Mühafizə tədbirlərində məqsəd - fövqəldə hallarda adamların həyatının qorunması üçün lazımi şəraitin yaradılması, adamların zədələnməsinin qarşısının alınması, yaxud zədələnmənin maksimum azaldılması, əhalinin mühafizəsinin səmərəli təşkil edilməsi, fövqəladə halların və onların nəticələrinin aradan qaldırılmasıdır. Mühafizə tədbirləri Azərbaycan Respublikasının bütün ərazisində ərazi istehsalat prinsipi üzrə təşkil edilir. Respublikanın bütün əhalisi mühafizə edilməlidir, bu tədbirlər fasiləsiz xarakter daşıyır, həm sülh, həm də müharibə dövrlərində yerinə yetirilir. Əhali yerləşən rayonların hərbi-siyasi və təbii xarakterindən, burada ehtimal edilən fövqəladə halların növündən, təhlükənin dərəcəsindən asılı olaraq mühafizə tədbirləri fərqli surətdə planlaşdırılır və həyata keçirilir. Bu məqsədlə, sülh dövründə baş verə biləcək fövqəladə halların xarakteri və miqyası barədə proqnozlar əsasında, habelə müasir müharibələrin xüsusiyyətləri, başlanması variantları, müxtəlif növlü qırğın vasitələrinin işlədilməsi imkanlar nəzərə alınmaqla respublikanın ərazisi zonalara ayrılır. Mülki müdafiə tədbirləri hərbi komandanlıq orqanları ilə sıx əlaqədə yerinə yetirilir. Əhalinin mühafizəsinə müxtəlif mühafizə üsullarından kompleks halında istifadə edilməklə nail olunur ki, bu üsullardan ən əsasları - əhalinin müxtəlif mühafizə qurğularında daldalandırılması, təhlükəli rayonlardan köçürülməsi və eyni zamanda fərdi mühafizə vasitələrindən istifadə olunmasıdır. Əhalinin mühafizəsi üzrə tədbirlər sülh dövründə əvvəlcədən hazırlanır, iqtisadi və sosial inkişaf planlarında nəzərdə tutulur və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada yerinə yetirilir.

**Valeh ABDULLAYEV,**
**Qəbələ RİH-nin aparıcı məsləhətçisi.**

# Novruz bayramı ərəfəsində mədəni-kütləvi tədbir



Azərbaycan Respublikası Hərbi Prokurorluğu tərəfindən Novruz bayramı ərəfəsində Azərbaycan Respublikası Daxili Qoşunlarının Qəbələdə yerləşən N saylı Hərbi hissəsində tədbir keçirilib. Tədbir iştirakçıları öncə şəhidlər guşəsinin önünə gül dəstələri düzərək qəhrəman vətən övladlarının xatirəsinə ehtiramlarını bildirmişlər. Azərbaycan Respublikası Hərbi Prokurorluğunun, Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndələrinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının iştirakı ilə keçirilən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, Ulu Öndər Heydər Əliyevin və bütün şəhidlərin unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Tədbirdə çıxış edənlər müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömür yolundan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilmiş hərtərəfli islahatlardan, qüdrətli Silahlı Qüvvələrimizin qəhrəmanlıqlarından danışmışlar. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbədə prokurorluğun, həmçinin Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən Daxili Qoşunlarla və aidiyyəti rayonların rəhbərlikləri ilə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs etmişlər. Sonra hərbi qulluqçuların qayğı və problemləri ilə maraqlanılmış, onlarla hüquqi maarifləndirici mövzularda söhbətlər aparılmışdır. Sonda xidmətdə fərqlənən hərbi qulluqçular qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

# Elimizə yaz gəlir

Qəbələ rayon Tarix -Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə Novruz bayramı münasibəti ilə "Elimizə yaz gəlir" adlı tədbir keçirilib. Öncə gənc nəslin mənəviyyatca zəngin yetişdirilməsi,



onlarda milli-mənəvi dəyərlərə hörmət və sevgi hissini aşılamaq məqsədilə muzeyin fondunda mühafizə olunan etnoqrafik materiallardan ibarət sərgiyə baxış keçirilmişdir. Çıxış edənlər tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı haqqında bəhs edərək, Azərbaycanın bütün suveren ərazisində qeyd edilən milli birlik və həmrəylik rəmzi olan müqəddəs Novruz bayramı münasibəti ilə tədbir iştirakçılarını təbrik etmişlər. Sonda tədbir iştirakçılarına Novruz xonçasından sovqat paylanılmışdır.

# Xatirələrdə yaşayan ömür



Dünyaya insan gəlir, fərqli taleyi yaşamağa, fərqli ünvanlarda ömür sürməyə, fərqli peşəyə, sənətə sahib olmaqla əməli ilə yaddaşlara yazılıb, vətənə, xalqa xidmət yolunda fədakarlıqlar üçün. Bütün bunlar hər bir insan taleyində müxtəlif şəkildə biruzə verir .

Bəli! Bu ulu yurdun köksündə yaşayan hər bir vətən övladının ürəyinin odu, hərarəti var. Onlar bu gün yaşamasalar belə tarixə qovuşub əmələri ilə hikmət, nəsihət müdriklik, zəka mücəssəməsi oldu, sözləri ürəklərdən qopub ürəklərə döndü, yaşadığı ömür səhifələrinin hər sətrini "ucalarımız", "şərəfli peşə sahibi" adını möhürlədi.

Belə şərəfli ömür yaşayan, şərəfli, eyni zamanda çətin peşənin sahibi Kiçik Pirəlli kəndində doğulmuş, ömrünü-gününü müəllimlik peşəsini layiqincə yerinə yetirən Osmanov Abduləli müəllim kimi. Abduləli müəllim yaşadığı illər ərzində qabaqcıl pedaqoq kimi vətən övladlarının savadlanması, gələcək həyatın düzgün şəkildə istiqamətlənməsində gərgin əmək sərf etmişdir. Onu tanıyanlar sadəcə bu kəlmələrlə fikrini bildirirdi: Sadə, savadlı, eyni zamanda yüksək əxlaqi keyfiyyətlərə xas səmimi insan. Cəmi 54 bahar yaşadı, 54 il bu dünyanın yolcusu oldu. Lakin əməli ilə yazdığı həyat yolu illərdir ki, yaddaşlarda yaşayır, ev-ev, oba-oba, kəndbəkənd dillərdə dolaşır. Həyat yolu qısa, əməyi, peşəsinə vurğunluğunun aliliyi yüksək olan Abduləli müəllim bu gün də ürəklərdə yaşayır: Ata kimi, müəllim kimi, həmkəndli kimi, ən başlıcası ən ali xüsusiyyətləri özündə birləşdirən əsl insan, xeyirxah, müdrik, peşəsinin vurğunu, vətəndaş kimi. Xatirələrin qonağı, dillərin əzbəri, yaddaşların ən maraqlı və sevgi dolu insanı. Həqiqətən bəzən elə olur ki, bir insan haqqında yazmağa kəlmələr də aciz olur. Güclü şəxsiyyət xarakteri, humanizm, müdriklik, səmimi insan, qayğıkeş, zəhmətkeş, peşəsini layiqincə sevən və s. bütün xüsusiyyətlərin daşıyıcısı Abduləli Osmanov pedaqoq kimi məktəbdə, rayonda kənddə, qonşuluqda hörmətli insan kimi yaşadı və bu gün əməli, əməyi örnək nümunə oldu. Qonşuluqda da, həmkəndli kimi kənddə də böyük hörmət və nüfuz sahibi oldu. Yeddi övlad böyütdü, onlara əsl insan kimi ömür sürməyi, həyatı sevməyi, peşə, sənət sahibi kimi yetişməsində müəllim kimi,

**(Ardı 8-ci səhifədə).**